

Zahid SARITORPAQ

## QÜRBƏT QAYSAQLARI

adının böyründə pas tutmuş suçların üstüylə
qəribin bir axsaq günü də yeriyib keçdi –
yeridi yenə bir ayağıyalın,
bir ayağındasa əsgər çəkməsinə oxşayan ürək.

illərdi pəncərəsindəki şüşənin çatında
doğranır rüzgarların səs telləri,
boğazları kəsilmiş notların qanı çilənir
daşa-divara, oxuduqlarına.

hərdən
arxasını işığına çevirmiş ölü günlərin kəfənində
gül rəsmləri cızmaq keçir içindən
yazmaq da keçir: "Ey gül, göstər kərəmini,
ya məni də öldür buralarda,
ya bahar haqda röyalara bir son ver..."

burda
birçəyi ağacların biləyinə dolaşmış
əli ülgüclü qış küləklərindən
qəriblərin içinə doğranır şaxtaların çəhrayısı,

gözlərin dibinə sərilmiş xalçalara tökülür qanı
polis dəyənəyindən çürüyən böyrəklərin.

günəşin sevdası ən çox
səkiləri süpürən yabançıların
sızlayan əllərinin çatlarında kirlənir.

bir muzdlunun heybəsindən qalxan qara
çörəyin qoxusu
gecələrin başını kəsəndə
bayram eləyir
sözlərinin qırağında dəvətikanları
bitmiş cənublular,

qürbət zinakar bir qadına dönür asanca,
çılpaq göbəyinin oymağında şərab içirtməklə
öldürəndə bərəkətlərin halallığını
kürən kirpiyini qırpmaz da baxar.
beləcə, cavan qəriblərin qarışıq yuxularının
damı damanda,
dənəvər leysanlar boğulanda qarışqa
yuvalarında
halallıq murdar bir nəsnəyə dönüb
çıxar suyun üzünə
"Ey gül, göstər kərəmini..."

hər zaman uzaq xatirələrin
mumiyalanmış meyitlərindən əsən
pətək qoxusu doldurmur gedər-gəlməzini
üzülmüşlərin,

odur ki sabahkı günün şəkərinə çırpılan arılar
bir ahu-zarda bağlarlar şanlarını çox vaxt

bir ayağı yalın,
bir ayağındasa əsgər çəkməsinə oxşayan ürək,
adının böyründə pas tutmuş suçların üstüylə
gün keçirkən axsaya-axsaya
qərib elə bilər yaşamına
yalqızlığına,
ölümünə
dünyada işıqlı olan hər şeyin
könüllü sürgünü başlayır,
sevinər...

## ACI SÜKUT

gün gələr,
sənin də ruhunu bir dərviş bulud,
çiynini bir yağışlı üz,
dodağını
öz alovunun qanı içində çırpınan
şəhid bir söz yurd elər,

gün gələr,
damarlarındakı qan döyüntüsünün
Adəmin addım səsləri olduğuna inanarsan,
amma bu bir parça çörək,
bu bir parça çörək dediyini deyəcək
min il keçsə də yenə;
deyəcək, bax, sevda budur,
deyəcək, bax, ömür budur,
deyəcək, bax, bəxt budur!

gün gələr,
sən də bilməzsən,
bilməzsən çörək göz yaşı,
ya göz yaşı çörək dadır...

